# 26 iyun - Azərbaycan Milli Ordusunun yarandığı gündür

26 iyun tariximizin əlamətdar səhifələrindən biri - Azərbaycan Milli Ordusunun yarandığı gündür. 1918-ci il iyun ayının 26-da Azərbaycan Xalq Cümhuriyyəti ilk milli diviziyanın və Hərbi Nazirliyin yaradılması barədə qərar qəbul etmişdir.

Milli Ordunun yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biri idi. Məhz güclü, nizami ordu 1918-ci il may aının 28-də elan edilmiş istiqlalın bütün ölkə ərazisində qələbə çalmasını təmin edə bilərdi. Artıq iyun ayının əvvəlində Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti əksəriyyəti ermənilərdən ibarət olan 20 minə yaxın döyüşçü ilə cümhuriyyətə qarşı savaşa başlamışdı. Məqsəd milli hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Lakin daşnaklar buna nail ola bilmədilər. İyun ayının 26-da ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul edilmiş, Azərbaycan Milli Ordusunun təməli qoyulmuşdu. General Səmədağa Mehmandarov hərbi nazir, general Əliağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sulkeviç isə baş qərargah rəisi təyin olunmuşdu. 1919-cu il milli ordu quruculuğunda həlledici mərhələ olmuşdu. Ordunun yaradılması prosesi 1920-ci il yanvar ayında əsasən başa çatdırılmışdı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi 1920-ci ilin aprel ayında XI Qızıl Ordu Azərbaycan sərhədlərinə yaxınlaşmış və A.-Mikoyan başda olmaqla Bakı



bolşevikləri rus ordusunu Bakıya çağırmışdı. Milli Ordunun sərhəddəki azsaylı hissələri ruslara müqavimət göstərə bilməmişdi. Aprelin 27-də Bakı buxtasına yan alan XI ordunun hərbi gəmiləri artıq toplarını parlament binasına tuşlamış, Bakıda milli hökumət süqut etmişdi. Azərbaycan istiqlaliyyətinin süqutu ilə Milli Ordunun mövcudluğuna da son qoyulmuşdu. Bolşevik hökuməti isə artıq 1920-ci il mayın 7-də Azərbaycanda ordu və donanmanın yenidən təşkil edilməsi barədə dekret vermişdi. Milli Ordunun ləğvindən sonra 21 generaldan 15-i bolşeviklər tərəfindən güllələnmiş, komandirlərin böyük hissəsi repressiyaya məruz qalmışdı. İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir. Məhz Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkədə gerçək ordu quruculuğuna başlanmışdı. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi elan edilmişdir. Hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Ulu öndərin dahiyanə uzaqgörənliklə əsasını qoyduğu Cəmşid Naxçıvanski adına Hərbi Lisey müstəqillik illərində Azərbaycanda hərbi kadrların hazırlanmasında böyük baza oldu.

1997-ci ildən Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrində də gərəkli islahatlar aparıldı. Belə ki, bu müəssisələrdə tədris NATO standartlarına uyğun aparılmağa başladı. Bu, kursantların hərbi biliklərə daha əhatəli yiyələnməsini təmin etdi. Bundan başqa, ölkənin müdafiə sənayesi Ulu Öndərin rəhbərliyi ilə elmi əsaslarla inkişaf etdirilirdi. Bakıda keçirilən Beynəlxalq müdafiə sənayesi sərgilərində çoxtərəfli əlaqələr qurulurdu. Bu sərgilərdə Azərbaycanın müdafiə sənayesinin istehsal etdiyi məhsullarla yanaşı, ordu quruculuğunda əldə edilən üstün nailiyyətlər də nümayiş olunurdu. Bu isə özlüyündə dünya dövlətlərində Azərbaycanın iqtisadi qüdrəti, ordusunun gücü haqqında gərəkli təəssüratlar yaradırdı.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ordu quruculuğu istiqamətində onun işini yüksək səviyyədə davam etdirdi. Bir tərəfdən münaqişənin sülh yolu ilə həlli istiqamətində işlər aparılsa da, digər tərəfdən ordu quruculuğunda böyük işlər görülür, geniş miqyaslı islahatlar həyata keçirilirdi. İstər Azərbaycanda, istərsə də Türkiyədə, İranda, Rusiyada, Qazaxıstanda keçirilən müxtəlif beynəlxalq tədbirlərdə iştirak edən hərbçilərimiz lazımi təcrübə qazanırdılar. Azərbaycanda ordu quruculuğu istiqamətində həyata keçirilən islahatlar silahlı qüvvələrin nizami ordu kimi formalaşdırılması prosesini hərbi-elmi baxımdan yüksək səviyyədə tamamladı. Bu prosesdə ictimaiyyətin də iştirakı təmin edildi. Ordu sıralarına minlərlə gənc daxil oldu ki, bu da həm Ordunun gücünün artırılması kimi, həm də ordu - ictimaiyyət münasibətlərinin daha da möhkəmləndirilməsi kimi gərəkli oldu.

Bütün bunların nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasına çıxdı və 44 günlük Vətən müharibəsində öz qüdrətini dünyaya göstərdi. Rəşadətli Ordumuzun şücaəti, Vətən torpaqları uğrunda apardığı ölüm-dirim savaşı sayəsində ərazi bütövlüyümüz bərpa olundu, haqq, ədalət öz yerini tapdı. Təsadüfi deyil ki, Azərbaycan Ordusu bu gün dünyanın 50 ən güclü ordusu sırasında yer alıb.

Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük Zəfər qazandı. Bu müharibə Ordumuzun gücünü dünyaya nümayiş etdirdi. Bu gün biz Ordumuzla qürur duyuruq. Azərbaycan qüdrətli ölkədir və güclü ordusu var. Düşmənlərimiz bunu unutmasınlar.

**"Qəbələ"**

# Pəncərəni külək döyüb ağlasa

Bu dünyanın gərdişi bu... Yük çəkənə güc də verər... anlam verər. Duyğusala duyğulanmaq, ümidliyə ümidlənmək, zəhmətkeşə zəhmət, dərdçəkənə dərd də verər, dərd çəkməyə qüvvət , qüdrət; ölümlərə rəng də verər, rəmzi mənada olsa belə... ölümlər də fərqli, fərqli... Ölüm var ki, acıması az, göz yaşı da müvəqqəti, həm də sadə... Ölüm var ki, yaşaması zülüm, çətin, xəstəliyi, dərdi müşkül... Ölüm də var ki, ölümlərin "tacı"... həm əşyada, hər canlıda, hər məfhumda yaşar daim... Əbədilik qazanaraq yaşasa da, bu yaşamın hər cizgisi göz yaşının təzəsidir. Qaysaq tutmaz, boyadımaz o yaralar, o ölümlər, acı yaşlar. Anlıq olar, günlük olar ölümü də... zirvələrdə məkan quran, həmişəbahar şəhid ömrü... Küləklər qıyya çəkəndə, həzin - həzin əsəndə də, duman öz qoşununu yer üzünə səpəndə də; təbii güllər şəhidlərçün əkiləndə, güllər şəhid, qazi qanlarıyla torpaq olan bu torpağın rişəsindən yaşam alıb göylərə baxıb "gülümsərkən", günəş öz şəfəqlərini yer üzünə paylaşarkən yaşar onlar - cənnət qoxulu, cənnət nəfəsli, əbədiyaşar ömürlü şəhid Vətən övladları!..



Ona görə pəncərəni külək döyüb ağlasa da, Sən ağlama, şəhid anası; acı göz yaşının qəlbində yaratdığı "dəniz daşar"... Gülüşünün simanda donaraq açdığı "şırımlar" duz bağlar, hər gün soyuq məzar daşına həm cismən, həm mənən söykədiyin köksündən nəfəs belə bu acıdan "quruyar". ...İsidə bilmərsən soyuq daşları... axı sənin nəfəsin bu daşlara "can" verir, məzar başındakı cansız güllər canlanır... Körpə, fidan ömürlü Ruslanımız qısacıq ömrü ilə elə bir yaşam nümunəsi göstərdi ki, bir əsr ömür sürüb insan ömürlü kimi xatırlanmayanlar bu ömrə "qibtə" etdilər... Cismən yaşamaq şərt deyil insan üçün. Yaşaya-yaşaya yaşanmayan kimi ömür sürməkdənsə, cismən yaşamasa da, heç olmasa bir neçə nəsil yaddaşlarda yaşamaq daha şərəfli... Əməlləri ilə, adı ilə yaşamaq hər kəsə nəsib olmaz! Bu insanlığın kök saldığı bir nəsil "ağacında" yetişə bilər. Bax, bu şəhid ömrüdür - şərəfli və əbədiyaşar bir ömür. Validеynlərinin şərəf və şücaət rəmzi...

Hər kəsin taleyi doğulduğu gün yazılır. İnsan öz tale yazısını əvvəlcədən bilsə, bəlkə də onu öz istədiyi kimi yönləndirərdi, istədiyi həyatı yaşayardı. Ancaq həyat o zaman yeknəsək, mənasız olardı bəlkə. Bəlkə də bu, insan ömrünə layiq bir ömür sanılmazdı. Axı insan canlıların ən ali varlığıdır! Tanrı yazar ona görə də taleyi - hər kəsə layiq olduğu bir tale və ömrü ...

Ruslan Qalib oğlu İdrisov... Çox az ömür yaşasa da, yaşadığı ömrü şərəflə yaşadı. Hər kəsin tərcümeyi-halı yazılarkən yaşadığı ömürlə sıralanar, o tərcümeyi-hal o ömürə görə həcm tutar. Ancaq Ruslanın tərcümeyihalı yaşadığı ömürə görə o qədər zəngindir ki... Əslən Qəbələ rayonunun Qəmərvan kəndindən olan İdrisov Ruslan Qabil oğlu 2002-ci il iyun ayının 6-da Ukraynanın Odessa şəhərində anadan olmuşdur. Sonralar ailəsi ilə birgə Qəbələnin Nic kəndinə köçmüş, orada yaşamışdır. 2009-cu ildə Qəbələ rayon 3 saylı məktəbində 1-ci sinfə getmişdir. 2020-ci ildə Zarağan kənd 2 saylı orta məktəbinin XI sinfini bitirmişdir. Həmin ilin iyul ayının 11-də həqiqi hərbi xidmətə getmişdir. Əsgəri xidmətə Goranboy rayonunda başlamışdır. Çox az bir müddət əsgəri xidmətdə olmasına rəğmən hərbi hissədə öz intizamı, xarakteri ilə rəğbət qazanmışdı. Ruslanın şəkillərinə baxdıqca nikbincəsinə, gülümsər baxışları gəncliyinin hələ yaşanmadığı arzular çələnginə bənzəyir. Ancaq o arzular çələngi hələ qönçələr ikən donub baxışlarda, arzular isə o gözlərin dərinliyində qeyb oldular. O simaya bir cənnət təbəssümü qonub. O təbəssümün sehri isə bu Vətən oğlunu - Vətən tarixini yenidən yazan bahar ömürlünü yaddaşlarda , xatirələrdə yaşadacaq .Ruslan ən ali bir adla ən uca zirvənin simvolik vətəndaşı kimi yaşayacaq!..

Ruslan Vətən müharibəsi zamanı Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Çox az bir müddət hərbi xidmətdə olmasına rəğmən qorxmaz, ürəkli, vətən və yurd sevgisi daha çox olan, vətənpərvər, mənəvi cəhətdən saf və zəngin bir gənc idi...

O Goranboy rayonunun Tapqaraqoyunlu kənd istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Valideynləri onunla son dəfə sentyabrda danışmışdı...

Uşaqlığından yenicə ayrılaraq, yeniyetməlik dövrünü yaşayaraq, gəncliyin tam astanasında olan ən gənc döyüşçü, tərcümeyi-halı zəngin bir igid, bir eloğlu! Sənin qısacıq keçdiyin o rəşadətli döyüş yolu, şərəfli hərbçi həyatın ən uca zirvənin fatehləri ilə bir sırada cərgələndirdi Səni! Ölümündən sonra əməllərin igidliyin təltifləri ilə qiymətləndirildi: "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medallarla!

Şəhid Ruslan İdrisov Soltannuxa kəndində dəfn olunmuşdur.

Mənim ən gənc qəhrəmanım! Məkanın cənnət olsun, cənnət məkanındakı doğum günün mübarək! İllər tarixi qocaltsa da, sən həmişə bahar - fidan ömürlü qəhrəman Vətən oğlu kimi yaddaşlarda yaşayacaqsan!

**BİBİXANIM.**